*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 may 2019-cu il № 35 (2352) Qiymıəti 30 qəpik


## "Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir"

### Azərbaycan Prezidenti İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib

*Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.*

*Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.*



AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda söyləyib.

Dövlətimizin başçısı deyib: "Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar".

Prezident İlham Əliyev bu qəbil tədbirlərin beynəlxalq münasibətlərə müsbət təsirindən danışaraq beynəlxalq təşkilatların ciddi münasibət bildirməli olduğu bir məsələyə də toxunub:

"Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir".

## Ölkəmiz Avropa Şurasının 70 illik yubiley tədbirində "Azərbaycan - tolerantlıq diyarı" sərgisi ilə təmsil olunub

*Strasburqda Avropa Şurasının (AŞ) 70 illik yubileyi çərçivəsində qurumun mənzil-qərargahının yaxınlığında yerləşən məşhur "Oranjöri" parkında ("Parc de l"Orangerie") "Avropa Günü"nə həsr edilmiş bayram tədbirlərində ölkəmiz də təmsil olunub.*

AZƏRTAC xəbər verir ki, ölkəmizin Avropa Şurası yanında Daimi Nümayəndəliyi tərəfindən "Azərbaycan - tolerantlıq diyarı" adlı sərgi təşkil edilib.

Sərgidə ölkəmizin tolerantlıq və multikultural mühitini özündə ehtiva edən və əsrlər boyu ölkəmizdə mehriban ailə kimi yaşayan müxtəlif dini icmaların həyatını əks etdirən fotoşəkillər nümayiş etdirilib. Tolerantlıq və multikulturalizmdən bəhs edən qısametrajlı film göstərilib. Ölkəmizin turizm potensialının təbliğinə dair videoçarxlar təqdim edilib. Bayram tədbirlərində Heydər Əliyev Fondu tərəfindən ölkəmizin zəngin tarixinə, mədəniyyətinə, ədəbiyyatına dair fransız və ingilis dillərində nəfis şəkildə tərtib edilmiş kitablar, eləcə də görməli və tarixi yerlərə dair broşürlər, açıqca və bukletlər sərgilənib. Ölkəmizə xüsusi maraq göstərmiş insanlara həmin materiallardan hədiyyə edilib.

Azərbaycan stendi ziyarətçilərdə böyük maraq doğurub. Onların ölkəmiz, onun tarixi, coğrafiyası, bölgələri və turizm imkanları barədə sualları ətraflı cavablandırılıb.

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

*Mayın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini general-mayor Oleq Belokonev ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə fəaliyyətin nəticələrindən məmnunluq ifadə edilərək bu istiqamətdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər Belarusun hərbi-sənaye kompleksi müəssisələrinin istehsal etdiyi bütün qoşun növləri üçün nəzərdə tutulan müxtəlif təyinatlı hərbi məhsulların Azərbaycan Ordusunun silahlanmasına qəbul edilməsini müsbət qiymətləndiriblər.

Görüşdə ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın geniş spektri müzakirə edilərək Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönələn yeni böyük layihələrin həyata keçirilməsi istiqamətləri müəyyənləşdirilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 may 2019-cu il.* Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri Böyük Britaniya Müdafiə Tədqiqatları üzrə Kral Kollecinin nümayəndə heyəti ilə görüşüb



Mayın 7-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda səfərdə olan Böyük Britaniya Müdafiə Tədqiqatları üzrə Kral Kollecinin professoru Deyvid Ellerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kollecdə təhsil alan Böyük Britaniya, Malayziya, Keniya, Oman, Qətər, Küveyt, ABŞ, Kolumbiya, Cənubi Koreya, Çin və digər ölkələrin ali rütbəli zabitləri, diplomatlar və dövlət qulluqçularının təmsil olunduğu heyəti salamlayan Müdafiə naziri onlara regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar, habelə ölkəmiz tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına verilən töhfə və digər məsələlər barədə ətraflı məlumat verib.

General-polkovnik Zakir Həsənov Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlıq proqramları, xüsusilə hərbi təhsil sahəsində həyata keçirilən fəaliyyətlərin vacibliyini də görüş iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri xatırladıb ki, Azərbaycan Respublikasının və Birləşmiş Krallığın Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən, Böyük Britaniya Müdafiə Tədqiqatları üzrə Kral Kolleci tərəfindən təşkil olunan kurslarda 2012-ci ildən Azərbaycan Ordusunun zabitləri də fəal iştirak edirlər. General-polkovnik Zakir Həsənov bu istiqamətdə göstərilən dəstəyə görə Britaniya tərəfinə təşəkkürünü bildirib.

Professor D.Elleri də öz növbəsində kollecin fəaliyyəti barədə məlumat verərək, təşkil edilən kursların vacibliyi və bu cür səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayaraq, səmimi qəbula görə heyət üzvləri adından Müdafiə nazirinə minnətdarlığını bildirib.

Görüş zamanı general-polkovnik Zakir Həsənov qonaqları maraqlandıran çoxsaylı sualları cavablandırıb.

# Müdafiə naziri: Əsas diqqət döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına yönəldilsin

*Mayın 4-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusunun hərbi potensialının gücləndirilməsi ilə bağlı qarşıya qoyduğu konkret vəzifələri rəhbər həyətə çatdıran Müdafiə naziri əsas diqqətin bütün qoşun növ və qismlərinin, xüsusilə ön xətt bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməsini tapşırıb.



Müdafiə naziri döyüş hazırlığı planına uyğun olaraq gecə və gündüz vaxtı real döyüş şəraitinə və ərazisinə uyğun keçirilən təlim və məşqlərin intensivliyinin artırılması, gizli idarəetmə və maskalanmanın tələblərinə, ümumi təhlükəsizlik məsələlərinə, xüsusilə də yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməklə qoşunların operativliyinin, döyüş hazırlığının yüksəldilməsi, birlik və birləşmələrin silah, döyüş və xüsusi texnikasının yay mövsümündə istismar rejiminə keçidinin təşkili ilə bağlı vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

Nazir döyüş hazırlığının daha keyfiyyətli təşkili, hərbi peşəkarlıq səviyyəsinin artırılması, şəxsi heyətin hərbi vətənpərvərlik və döyüş ruhunun yüksəldilməsi məqsədilə ideoloji işin və mənəvi-psixoloji təminatın gücləndirilməsi, habelə digər xidməti məsələlərin həlli ilə bağlı konkret göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Azərbaycan dünyanın faydalana biləcəyi gözəl bir nümunə təklif edir”

Dünyada təhlükəsizliyin və əmin-amanlığın təmin olunması istiqamətində səylər göstərən Azərbaycan bu gün açıq, demokratik, sabitlik ölkəsi kimi digər dünya dövlətlərinin faydalana biləcəyi gözəl bir nümunə təklif edir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri deyib.

Azərbaycanda keçirilən bu Forum dünya ictimaiyyətinə bəşəriyyəti narahat edən problem və çağırışları hökumətin və ölkə rəhbərliyinin də tam dəstəyi ilə açıq və səmimi şəraitdə müzakirə etməsi üçün gözəl imkan yaradır. Azərbaycan Prezidenti İlham Əliyev sülhün, birgə yaşayışın, dövlətlər və xalqlar arasında dostluq və əməkdaşlıq mühitinin yaradılmasının carçısı kimi çıxış edir", - deyə baş direktor əlavə edib.

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi belaruslu həmkarı ilə görüşüb

*Mayın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini general-mayor Oleq Belokonev ilə görüşüb.*






Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Belarusun nümayəndə heyəti Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar. Qonaqlar, həmçinin iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun abidəsini də ziyarət edib, önünə güllər düzüblər.

Sonra Baş Qərargahda rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə Belarus generalı arasında geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik N.Sadıkov vurğulayıb ki, dövlət başçılarının yaxın dostluq əlaqələri ölkələrimiz və xalqlarımız arasında qədim tarixə, səmimi və qarşılıqlı inam ənənələrinə söykənir. Azərbaycan Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir. Hərbi-texniki və hərbi təhsil sahələrində Azərbaycan-Belarus əməkdaşlığının genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov xatırladıb ki, uzun illər davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır və bir milyondan çox soydaşımız doğma yurd-yuvalarından didərgin düşüb. Bu münaqişə regional sabitliyə əsas təhlükədir. Əminik ki, Belarus Respublikası həmişə olduğu kimi, bundan sonra da bu münaqişənin həlli məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyəcəkdir.

Belarus xalqının nümayəndəsi, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə misilsiz şücaət göstərərək həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoliy Davidoviçi xatırlayan general-polkovnik N.Sadıkov xalqımızın onu daim hörmət hissi ilə yad etdiyini xüsusi qeyd edib.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən general-mayor O.Belokonev Azərbaycan-Belarus münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Qonaq əməkdaşlığın dövlət başçılarının dostluq əlaqələrinə əsaslandığını qeyd edərək Belarusun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə fəaliyyət, mütəxəssislərdən ibarət qrupların qarşılıqlı səfərlərinin təşkili, iki ölkənin ordu bölmələrinin iştirakı ilə təlimlərin keçirilməsi və maraq doğuran digər məsələlər müzakirə edilib.

Mərkəzi Komanda Məntəqəsinə gələn qonaqlar burada yaradılmış şəraitlə tanış olublar.

# Belarusda Mehdi Hüseynzadəyə həsr olunan tədbir keçirilib

Böyük Vətən müharibəsində Qələbənin 74-cü ildönümü münasibətilə Azərbaycanın Belarusdakı səfirliyi MDB İcraiyyə Komitəsinin mənzil-qərargahında əfsanəvi kəşfiyyatçı-partizan Mehdi Hüseynzadəyə həsr olunan "Uzaq sahillərdə" filminin nümayişini təşkil edib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbiri MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski açaraq tədbirin Böyük Vətən müharibəsində Qələbənin 74-cü ildönümü münasibətilə Azərbaycanın Belarusdakı səfirliyinin təşəbbüsü ilə təşkil olunduğunu bildirib. O qeyd edib ki, bu, bizim ümumi qələbəmizdir. Keçmiş SSRİ-nin bütün xalqları Qələbənin əldə olunması üçün böyük qurbanlar verib. Bu Qələbə bizim üçün çox əzizdir. Viktor Quminski bu gün daha bir Sovet İttifaqı Qəhrəmanını tanıyacaqlarına görə Azərbaycan səfirliyinə təşəkkürünü bildirib.

Səfir Lətif Qəndilov çıxış edərək tədbir iştirakçılarına Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin həyat və döyüş yolu barədə geniş məlumat verib. Qeyd olunub ki, Mehdi Hüseynzadə Stalinqrad uğrunda gedən döyüşlər zamanı ağır yaralanaraq əsir düşüb, 3 dəfə əsirlikdən qaçmağa cəhd edib və sonda buna nail olaraq Yuqoslaviya partizan hərəkatına qoşulub. Mehdi Hüseynzadənin Yuqoslaviya Xalq Azadlıq Ordusu sıralarında döyüş yolu uzun müddət Sovet İttifaqının geniş ictimaiyyətinə məlum olmayıb. Yuqoslaviyanın o dövrdə rəhbəri olmuş İosip Broz Tito SSRİ-yə səfəri zamanı Stalinə Yuqoslaviya partizan hərəkatında qəhrəmanlıqla döyüşmüş qafqazlı Mehdi Hüseynzadənin qəhrəmanlıqları barədə məlumat verdikdən sonra onun döyüş yolu ilə bağlı araşdırma aparmaq o zamanlar Azərbaycan SSR-nin Dövlət Təhlükəsizliyi Komitəsində çalışan Heydər Əliyevə həvalə edilib. Səfir bildirib ki, aparılan araşdırmaların nəticəsi olaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli əmri ilə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib. 1959-cu ildə Həsən Seyidbəylinin və İmran Qasımovun ssenarisi əsasında M.Hüseynzadənin qəhrəmanlığına həsr olunmuş "Uzaq sahillərdə" bədii filmi çəkilib. 1972-ci ildə Bakı şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əfsanəvi kəşfiyyatçı-partizan M.Hüseynzadəyə möhtəşəm abidə ucaldılıb.

Səfir bildirib ki, xalqımız Böyük Vətən müharibəsində həlak olanların xatirəsini hər zaman hörmətlə anır. Qələbənin əldə olunmasında Azərbaycan xalqı 400 mindən çox oğul və qızlarını itirib.

Diplomat dəvəti qəbul edərək gəldiklərinə görə tədbir iştirakçılarına, MDB İcraiyyə Komitəsinin əməkdaşlarına və Belarusda akkreditə olunmuş səfirlərə təşəkkürünü bildirib.

Tədbirdə nümayiş olunan "Uzaq sahillərdə" filmi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Sonra filmlə bağlı müzakirələr aparılıb.

# Belarus Silahlı Qüvvələrinin nümayəndə heyəti hərbi hissədə olub



*Azərbaycanda rəsmi səfərdə olan Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini general-mayor Oleq Belokonevin rəhbərlik etdiyi nümayəndə heyəti hərbi hissədə olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən qonaqlar ərazidəki hərbi infrastruktur, inzibati, xidməti binalar və qurğular, eləcə də əsgər yataqxanası, yeməkxana və hərbi texnika ilə tanış olublar. Onlara şəxsi heyətin döyüş və xidməti vəzifələrini yerinə yetirməsi üçün yaradılan şərait barədə ətraflı məlumat verilib.

# Azərbaycan-Türkiyə birgə təlimlərində iştirak edən türkiyəli heyətin yola salınması mərasimi keçirilib

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında Sazişə əsasən, keçirilən "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatında bildirilir ki, təlimlərdə iştirak etmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli yolasalma mərasimi keçirilib.

Xatırladaq ki, mayın 1-də başlayan "Mustafa Kamal Atatürk-2019" taktiki təlimlərə Azərbaycan və Türkiyədən 1000-dən çox şəxsi heyət, 60-a yaxın döyüş texnikası, 30 artilleriya qurğusu, 20-yə yaxın döyüş helikopterləri və digər döyüş texnikaları cəlb olunub.

Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə saxlanılması olub.

# Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu

*Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən etmişdir.*



Azərbaycan Ordusunu müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev formalaşdırmışdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədədir. Vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern ordusuyla da diqqəti cəlb edir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri də Milli Ordunun təşkili idi. Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə ordu quruculuğunun əsası qoyulsa da, Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayanmış, ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. Ümummilli liderin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi laqeyd yanaşa bilməzdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Ümummilli Liderin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi.

Sonralar Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi durumla üzləşmişdi. Keçmiş Ali Sovet Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul etsə də, müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verildi, Azərbaycan Ordusunun yaranması sadəcə kağız üzərində qaldı. Ölkədəki ağır vəziyyət və iqtidarda olanların yaratdıqları xaos, özbaşınalıq, hərc-mərclik müstəqilliyimizi təhlükə qarşısında qoydu. Bundan istifadə edən düşmən torpaqlarımızın işğalını davam etdirir, ayrı-ayrı silahlı birləşmələr isə müxtəlif qrupların maraqlarına xidmət edirdilər. 1993-cü ilin yayında ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı, 1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı.

Ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlandı. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini məmnunluqla qeyd edirdi. "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçdi və bölgənin ən güclü qüvvəsinə çevrildi. Azərbaycan Ordusunun güclənməsinin və uğurlu şəkildə təşkilatlanmasının ən başlıca səbəbi, ordu quruculuğuna Heydər Əliyevin rəhbərlik etməsi idi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan ulu öndər Heydər Əliyev müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ordu quruculuğuna xüsusi bir önəm verdi, bu prosesin siyasətini çox böyük incəlik və dəqiqliklə müəyyənləşdirdi, onun icrasında məqsədyönlü bir çeviklik nümayiş etdirdi.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Hərtərəfli güclənən, hərbi qüdrəti, döyüş qabiliyyəti artan Azərbaycan Ordusu böyük inkişaf yolu keçib. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatları həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən, hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir.

Silahlı Qüvvələrimiz daha da modernləşdirilib, ən son hərbi texnologiyalar orduya cəlb edilib. Möhtəşəm hərbi paradlar da bunu təsdiq edir. Bu paradlar xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının gözəl nümunəsidir.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**



# Azərbaycan-Türkiyə birgə təlimlərində “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib

*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında Sazişə əsasən keçirilən "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərin son mərhələsi hər iki ölkənin yüksək səviyyəli müşahidəçilərinin iştirakı ilə baş tutub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 3-də "Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Türkiyə Silahlı Qüvvələrinin hərbi birliyinin komandiri general-leytenant Veli Tarakçının rəhbərliyi ilə nümayəndə heyətləri təlimlərin son mərhələsini izləyiblər.

Keçirilən təlimlər haqqında ərazinin maketi üzərində ətraflı məruzə edildikdən sonra yüksək səviyyəli qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olub, yerinə yetirilən tapşırıqların praktiki icrasını müşahidə ediblər.

Azərbaycan və Türkiyə ordularının təlimdə iştirak edən bölmələri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər.

Birgə təlimlər müvəffəqiyyətlə başa çatdıqdan sonra qonaqlar şəxsi heyətlə görüşüb, fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və xatirə şəkli çəkdiriblər.



# Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirilib



*Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüşüb.*

Görüşdə Müdafiə Nazirliyi, xüsusi təyinatlı təhsil müəssisələri, veteran təşkilatlarının nümayəndələri, veteran ailələri və məktəblilər də iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından görüş iştirakçılarını salamlayan nazir müavini tarixi Qələbənin qazanılmasında Azərbaycanın igid oğul və qızlarının layiqli töhfəsinin olmasını, yüz minlərlə həmvətənlimizin canlarından keçməsini, Milli Azərbaycan diviziyalarının müharibə tarixinə parlaq səhifələr yazmasını, veteranların döyüşlərdə, o cümlədən arxa cəbhədə qəhrəmanlıq və böyük fədakarlıq göstərmələrini xüsusi vurğulayıb.

Nazir müavini veteranlarımızın bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak etməsini, gənclərin orduya hazırlanmasında və ordumuzun şəxsi heyətinin döyüş ruhunun yüksəldilməsində səylərini əsirgəməməsini yüksək qiymətləndirib.

Bildirilib ki, ulu öndər Heydər Əliyev tərəfindən bu bayrama xüsusi önəm verilməsi və həmin ənənənin bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən davam etdirilməsi xalqımızın tarixi qəhrəmanlığına verilən qiymətin göstəricisidir.

Görüşdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov və digər qonaqlar ümummilli liderimiz Heydər Əliyevin ideyalarına, dövlətçiliyə, Ali Baş Komandana həmişə sadiq olan müharibə veteranlarının müasir mərhələdə respublikamızın ictimai-siyasi həyatında xidmətlərindən, Böyük Vətən müharibəsində tarixi Qələbənin 74-cü ildönümü ilə əlaqədar ölkəmizdə keçiriləcək tədbirlərdən danışıblar.



İkinci Dünya müharibəsi veteranları adından Fatma Səttarova, İsmayıl Fərəcov, Damət Nəbiyev, Ulduz Kəngərli və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib, işğal altında olan torpaqlarımızın azad ediləcəyinə və Azərbaycan Ordusunun parlaq qələbəsinə inamlarını ifadə ediblər.

Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupuna mükafatlar təqdim edildikdən sonra xatirə şəkli çəkilib.

**"Azərbaycan Ordusu"**

# Faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə hərbi hissədə tədbir keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Böyük Vətən müharibəsində Qələbənin 74-cü ildönümü münasibətilə Azərbaycan Ordusunun tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, növbəti tədbir Gəncə Qarnizonunun İdeoloji və Mədəniyyət Mərkəzinin "Vətən uğrunda" səyyar-təşviqat dəstəsinin təşkilatçılığı ilə keçirilib. Tədbirdə vurğulanıb ki, İkinci Dünya müharibəsi dövründə Azərbaycan xalqı SSRİ-nin digər xalqları ilə birlikdə faşizm üzərində ümumi qələbəyə öz töhfəsini layiqincə verib. İkinci Dünya müharibəsində qəhrəmanlıqla vuruşan 416, 402, 223 və 77-ci diviziyalar azərbaycanlılardan ibarət idi. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi dövründə təxminən 600 mindən çox azərbaycanlı döyüşçü orduya qoşulub və onlardan ən azı yarısı savaş meydanında həlak olub.

"N" hərbi hissəsində 9 May Qələbə Gününə həsr olunmuş tədbirdə İkinci Dünya müharibəsində döyüşən azərbaycanlılardan ibarət diviziyaların bayraqları şəxsi heyət üçün nümayiş olunub.

Hərbi qulluqçulara İkinci Dünya müharibəsinin azərbaycanlı qəhrəmanları Həzi Aslanov, İsrafil Məmmədov, Qafur Məmmədov haqqında çəkilən tarixi filmlər nümayiş etdirilib.

Leytenant Cəlal Nəcəfov çıxış edərək, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş yolundan fəxrlə danışıb. O, ulu babalarımızın davamçısı olaraq zabit kimi Vətənə xidmət etməklə onların yolunu şərəflə davam etdirdiyini və İkinci Dünya müharibəsində Azərbaycan gənclərinin göstərdiyi rəşadətin, döyüş ruhunun bu gün də gənc nəslə bir örnək olduğunu deyib.

Digər hərbi qulluqçu da Sovet İttifaqı Qəhrəmanı Məstan Əliyev nəslinin davamçısı kimi babasının keçdiyi şərəfli döyüş yolundan danışıb.

Qələbə gününə həsr olunmuş tədbirdə "Vətən uğrunda" səyyar-təşviqat dəstəsi "Əsgər məktubu" layihəsini həyata keçirib. Əsgərlər bu layihə çərçivəsində öz nənə və babalarına ünvanladıqları məktublarda onlara İkinci Dünya müharibəsində alman faşizmi üzərində əldə olunan qələbəyə görə minnətdar olduqlarını bildiriblər.

# "Mauthauzen" əsir düşərgəsində İkinci Dünya müharibəsinin qurbanları anılıb

Mayın 5-də Avstriyanın Yuxarı Avstriya federal əyalətində yerləşən keçmiş "Mauthauzen" əsir düşərgəsində buranın alman nasizmindən azad edilməsi və İkinci Dünya müharibəsinin başa çatmasının 74-cü ildönümü münasibətilə mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, İkinci Dünya müharibəsi zamanı Avstriyada ən böyük əsir düşərgəsi olmuş "Mauthauzen"in azad edilməsi münasibətilə keçirilən anım tədbirində Avstriyanın federal kansleri Sebastian Kurts, keçmiş federal prezident Haynts Fişer, parlamentin sədarəti, nazirlər, dövlət və hökumət nümayəndələri, diplomatik korpusun təmsilçiləri, yerli və xarici qonaqlar, əsir düşərgələrində alman faşistlərinin işgəncələrinə məruz qalmış keçmiş əsirlər iştirak ediblər.

Avstriya Mauthauzen Komitəsinin təşkil etdiyi mərasim bu il "Heç zaman nömrə ilə. Həmişə insan olaraq" devizi altında keçirilib. Mərasimdə çıxış edənlər bildiriblər ki, 1933-1945-ci illərdə Hitler Almaniyası və onun müttəfiqlərinin həyata keçirdiyi siyasi, dini, ideoloji və iqtisadi təqiblər nəticəsində milyonlarla insan öz vətənini tərk etmək məcburiyyətində qalıb. Bu zaman həmin dövrədək baş vermiş müharibə və deportasiyalara xas olmayan yeni bir motiv - irqçilik ciddi şəkildə ön plana çıxıb. Artıq 1938-ci ildə ilk məhbusların yerləşdirildiyi Mauthauzen düşərgəsində almanlardan azad edildiyi 5 may 1945-ci ilədək yüz mindən artıq əsir və məhbus həlak olub.

Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilovun rəhbərliyi ilə səfirliyin əməkdaşları, eləcə də bu ölkədə yaşayan soydaşlarımızdan ibarət nümayəndə heyəti mərasimlərdə iştirak edərək, ümumi anım monumenti və azərbaycanlı əsirlərin xatirəsini əbədiləşdirən lövhə qarşısında əklil qoyub, həlak olanların xatirəsini yad ediblər.

Xatırladaq ki, 2001-ci ildə "Mauthauzen" əsir düşərgəsində, 2011-ci ildə isə "Ebenzee" əsir düşərgəsinin ərazisində Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü və birbaşa dəstəyi ilə azərbaycanlı əsirlərin xatirəsini əbədiləşdirən abidələr qoyulub. Rəsmi məlumata görə, müharibə illərində "Mauthauzen"də 81 azərbaycanlı əsir qətlə yetirilib. Azərbaycanın bu ölkədəki səfirliyinin araşdırmaları nəticəsində "Mauthauzen" və onun tabeliyindəki digər əsir düşərgələrində 300-dək soydaşımızın əsir olduğu müəyyən edilib.

Yaradıldığı 1938-ci ildən İkinci Dünya müharibəsinin sonunadək "Mauthauzen" əsir düşərgəsində müxtəlif Avropa ölkələrindən 200 mindən artıq hərbi əsir işgəncələrə məruz qalıb, onların təxminən yarısı (90 min nəfər) isə alman nasistləri tərəfindən məhv edilib.

1945-ci ildə ABŞ ordusu tərəfindən azad edilən "Mauthauzen" əsir düşərgəsi 1947-ci ildən tarixi xatirə kompleksi kimi fəaliyyət göstərir. Burada hərbi əsirlərin saxlandığı baraklar, "xəstəxana", həbsxana, qaz kameraları və krematoriya olduğu kimi saxlanılır və tarixin acı gerçəkliklərinin nümunəsi kimi qorunur.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan öz müstəqilliyni elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə Birinci Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxttacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət müvəqqəti hökumətin əlinə keçdi.

1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edildilər.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə kütləviliyini artıran şura Bakıda siyasi üstünlüyə malik idi.

Milli hərəkatın fəallarının xalqın milli hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər milli-siyasi ideallların təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda, ümummilli mənafeləri əks etdirən strateji vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi.

Rusiyada 1917-ci ilin oktyabr silahlı inqilabından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Hərbi Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məhəmməd Yusif Cəfərov, Xudat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edildilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk gündən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

*Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən Bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. İstiqlal bəyannaməsində göstərilirdi:

1. Azərbaycan suveren dövlətdir. Azərbaycan xalqının hakimiyyəti altında Zaqafqaziyanın cənub və şərq hissələrindən ibarətdir.

2. Müstəqil Azərbaycan dövlətinin hökumət forması xalq cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti hamı ilə, xüsusən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti etnik mənşəyindən, dilindən, sinfindən, peşəsindən, cinsindən asılı olmayaraq sərhədləri daxilində bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün təminat verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.

6. Azərbaycan Müəssislər Məclisi çağırılana qədər Azərbaycan üzərində ali hakimiyyət hamı tərəfindən seçilmiş Milli Şura və bu Şura qarşısında cavabdeh olan hökumət tərəfindən həyata keçirilir.

Milli Şurada "Müsavat", "Bitərəf Demokratlar qrupu", "Müsəlman Sosialist bloku", "Sosial-Demokratik Hümmət qrupu" və "İttihad" partiyaları təmsil olunurdu.

Milli şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin təşkil edilməsi Fətəli Xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi.

Mayın 30-da Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqramla məlumat verildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumidə Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Osmanlı imperiyası Azərbaycana 2 mln. türk lirəsi ayırdı.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura müvəqqəti hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyi ilə ikinci hökumət təşkil edildi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyunun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı şəhərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Gəncədən Bakıya köçdü.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox Birinci Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci ilin 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü. Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin tərkibi 120 deputatdan ibarət idi. Parlamentdə azərbaycanlılara 80, ermənilərə 21, ruslara 10, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsinə 1, həmkarlar İttifaqı Şurası və Neft sənayeçiləri İttifaqı üçün 3 yer ayrılmışdı. Parlamentin ilk iclasında F.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Hökumətin təşkili F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "Türkləşmək, islamlaşmaq və müasirlik" ideyası uğrunda mübarizə aparırdı.

Hökumətin Gəncədə fəaliyyəti dövründə 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan olunması haqqında fərman imzalandı. İyunun 27-də üzərində ağ rəngli aypara və səkkiz guşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu. 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul edildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada, 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanılaraq orta məktəblərin milliləşdirilməsi işinə başlandı və 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin əsası qoyuldu.

*Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri*

Azərbaycanın beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhəddinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Bolşeviklər Azərbaycanın daxilində də təxribatçılıq fəaliyyətini gücləndirirdilər. 1920-ci ilin fevralında A.Mikoyanın rəhbərliyi ilə yaranmış Azərbaycan kommunist (bolşevik) partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycanın hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər.

1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI Qırmızı ordunun hissələri Azərbaycan ərazisinə daxil olub, Bakıya doğru irəliləməyə başladılar.

Aprelin 27-də saat 12:00-da Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Xalq Komissarları Soveti yarandı.

Aprel işğalı nəticəsində Azərbaycanda qoyulan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəsilə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, böyük dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Bir tarix yazıldı 9 may günü

*Xalq şairi Səməd Vurğun böyük iftixarla 1945-ci ilin 9 may gününün tarixə qızıl xətlə yazılışını deyirdi. Bu fikir Qələbəni qazananlara ehtiram kimi 74 ildi cəmiyyətin istinad etdiyi fikirlər sırasındadır. Azərbaycanın bu Qələbədə rolu danılmazdır. İstər ittifaq sənayesinin inkişafında, istərsə də insan amilində Azərbaycanın bu qələbə üçün müqayisəyəgəlməz xidmətləri olub.*

*Qələbəni qazananlar həmişə ehtiramla əhatələnir. Müdafiə Nazirliyinin rəhbərliyi Böyük Vətən müharibəsi iştirakçıları ilə vaxtaşırı görüşür. Belə bir görüş Qələbə günü ərəfəsində də keçirildi. Əməkdaşlarımız görüşdə iştirak edən veteranlarla söhbətləşib.*



**Nazim Ramazanov:**

- İkinci Dünya müharibəsi başlayanda həmyaşıdlarım ordu sıralarına çağırıldılar. Mənə çağırış vərəqəsi gəlmədiyi üçün hərbi komissarlığa müraciət etdim. Orada mənə gözləməyimi bildirdilər. Mən Vətənin dar günündə gözləyə bilməzdim. Həmin vaxtlar başqa soyadla çağırışçıların arasına qatıldım. Azərbaycan SSR sərhədini keçdikdən sonra bunu bizə nəzarət edən zabitə bildirdim və döyüşləri öz soyadımla davam etdirdim.

Yaxşı xatırlayıram, bizi Dağıstanın Buynaksk şəhərinə gətirdilər. Burada bizə hərbi forma paylandı. Çox gərgin vaxt idi. Almanlar Terek çayının sahilinə gəlib çıxmışdılar. "İrəli" əmri gəlmişdi. Hər gün yerdəyişmə edirdik.

Krasnodar, Anapa, Novorossiysk şəhərləri uğrunda döyüşlərdə əldə etdiyimiz qələbə bizi daha da ruhlandırırdı. Həmin illərdə "Starşina" (bölüyün baş çavuşu) vəzifəsindəydim.

İlk dəfə Krasnodarda yaralandım, sonra ayağımdan və qolumdan təkrar yaralandım. Ancaq 4-cü dəfə mərmi sol əlimin üç barmağını qopartdı. Həkimlər əlimi amputasiya etmək istəyirdilər, ancaq son anda üç barmağımı kəsməklə kifayətləndilər. Uzun müddət Nalçikdə müalicə aldım. Bu, mənim üçün döyüşlərin yekunu idi. Ordu sıralarından azad olundum. Nalçikdən Bakıya hospitala göndərildim. Bu gün də bədənimdə müharibənin izlərini daşıyıram. Ayağımda hələ də qəlpə var. Həkimlər qəlpəni çıxarsaydılar, yeriməyim mümkün olmayacaqdı. Aradan 74 il keçsə də, ayağımda ağrılar var. Bu mənə müharibənin ağrı-acılarını unutdurmur. Hər zaman silahdaşlarımı xatırlayıram. Dəvət olunduğum tədbirlərdə onların qəhrəmanlıqlarından söz açıram. Çalışıram ki, onların Vətənə olan sevgisi gənc nəsillərə də öz töhfəsini versin.

Ötən illərlə müqayisədə ordumuz nə qədər güclənib. Hərbi hissələrdə yaradılan şərait insanı fərəhləndirir. Biz müharibənin ağrı-acısını yaşadıq. İstəmərəm ki, gənc nəsil bunları görsün, yaşasın. Arzu edirəm ki, tezliklə işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edək. Faşizm üzərində qələbənin növbəti ildönümünü orada da qeyd edək.

**Damət Nəbiyev:**

- 1925-ci ildə Yevlax rayonunun Vərvərə kəndində anadan olmuşam. 1943-cü ilin fevralın 15-də orduya çağırıldım. Bizi Sumqayıtın ehtiyat alayına gətirdilər. Bir ay keçməmişdi, iki zabit gəlib aramızdan Gürcüstandakı Aviasiya məktəbində təhsil almaq üçün iki nəfəri seçdi. Onlardan biri də mən idim.

Ukraynada, Polşa ətrafında gedən ağır döyüşlərdə iştirak etmişəm, Berlinə qədər döyüş yolu keçmişəm.

Yaxşı yadımdadı, ilk uçuşum Polşanın Varşava şəhərinə olub. Varşavanı almaq, sözün əsl mənasında, çox çətin idi. Varşavanın müdafiəsi üçün almanlar üç cərgə zenit-artilleriya qurğuları yerləşdirmişdilər. Bizim üçün ən qorxulu döyüş Varşava şəhərinin ətrafında oldu. Bunun ardınca Poznan şəhəri Sovet orduları tərəfindən mühasirəyə alındı. Həmin vaxt bizim aerodromumuz Poznan şəhərinin öz aerodromunda idi. Hətta Hitler həmin vaxt mühasirədə qalan qoşunlarına kömək üçün təyyarələrlə oraya desant, hərbi silah-sursat, qida və geyim ləvazimatları tökürdü. Bütün bunlara baxmayaraq Poznan şəhərində almanlar Sovet ordusuna təslim oldu.

Varşavanın azad olunması uğrunda gedən döyüşlərdə şəhər üzərindən yeddinci uçuşumda bizi atəşə tutmuşdular, dostum yaralanmışdı. Mühərrik zədələnəndən sonra, Visla şəhərinin ətrafında məcburi enməli olduq. Yaxşı ki, ərazi salamat idi və biz xilas olduq.

1945-ci ilin aprelin axırlarında ordumuz artıq Berlin şəhərinin ətrafındaydı. Meşəlikdə alman ordularının çoxlu zirehli texnikası yerləşdirilmişdi. Ordumuz almanların bu bazalarını zərərsizləşdirmək üçün ardıcıl hərbi əməliyyatlar keçirirdi. Bizə əmr olunmuşdu ki, oranı tamamilə bombalayaq, piyada qoşunların Berlinə daxil olması üçün yolun açılmasını təmin edək. Ordumuz Berlinə daxil oldu... Mənim sonuncu döyüş uçuşum 1945-ci il mayın 2-də Berlin səmasında oldu.

Döyüşlərdə sinəmdən və başımdan yaralandım.

Daim dövlətimizdən diqqət və qayğı görürük. Veteranlara Prezident təqaüdünün verilməsi, hər il birdəfəlik maddi



yardımın göstərilməsi, mənzil və avtomobillərlə təmin edilməsi, sanatoriya və xəstəxanalarda pulsuz müalicə olunmalarının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Uzun müddət gənclərin hərbi hazırlığı ilə bağlı mühazirələr oxumuşam. Bu gün də orta məktəblərdə keçirilən tədbirlərə dəvət edilir, cəbhə bölgələrində olur, əsgər və zabitlərlə görüşlərdə iştirak edirəm.

Ermənilər alman faşistlərindən də qəddardırlar. Xocalı faciəsini törədənlər cəzasız qalmayacaqlar. Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızın düşməndən azad ediləcəyi günü mən də səbirsizliklə gözləyirəm. Qələbə... 93 illik ömrümdə bu xoş xəbəri ikinci dəfə doğma Vətənimdə eşidəcəyim günə qədər yaşamaq istəyirəm.



**Məmməd Quliyev:**

- Mən, 1925-ci ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olmuşam. Ağır müharibə illərini unutmaq çox çətindir. 1943-cü ilin yanvarında cəbhəyə yollandım. Mənimlə birlikdə çoxlu sayda həmyerlim Şimali Qafqaza getdik. Altı ay hərbi məktəbdə təlim keçdik. Maksim pulemyotunu öyrəndik. Mən tuşlayıcı idim.

Kiçik serjant kimi döyüşlərə Xarkov şəhərinin alınmasından başladım. Bizim hissələr Dnepr çayını keçməyə müvəffəq oldular. İkinci Ukrayna cəbhəsində ağır yaralandım. Hospitalda müalicə aldıqdan sonra 1-ci Belarusiya cəbhəsində Vitebsk şəhərinin faşistlərdən azad olunmasında iştirak etdim. Moskvadan xüsusi tapşırıq gəlmişdi: Dvina çayının üzərindən keçən körpünün təhlükəsizliyini qorumaq və faşistlərə oranı dağıtmağa imkan verməmək. Biz bu tapşırığı yüksək səviyyədə yerinə yetirdik. Almanların körpünü dağıtmaqlarına imkan vermədik. Bu əməliyyat uğurla keçdiyinə görə Ali Baş Komandan İ.V.Stalinin imzası ilə hər birimizə təşəkkür məktubu göndərilmişdi.

Faşistlər Dnepr çayının sağ sahilini o qədər möhkəmləndirmişdilər ki, oranı Mannheimer səddi adlandırırdılar. Bizim zərbə batalyonu o səddi asanlıqla yara bildi. Sonra Latviya, Litva, Estoniya torpaqlarının alman-faşist işğalçılarından azad olunmasında iştirak etdim. Böyük Vətən müharibəsi cəbhələrində iştirakıma görə 20 orden və medalla təltif olunmuşam.

Doğulduğum və yaşadığım Zəngilan rayonu erməni faşistləri ilə sərhəddə yerləşir. Ermənilər döyüşlərə başlayanda mən və 3 oğlum əlimizə silah götürüb sərhəd kəndlərimizi qorumuşuq. İki oğlum - Fəxrəddin və Aydın 1993-cü ildə Beyləqan, Füzuli cəbhəsində döyüşlərdə şəhid olub. Hər ikisi Şəhidlər xiyabanında dəfn edilib. Biz veteranlar və şəhid ailələri dövlət qayğısı ilə əhatə olunmuşuq. Buna görə ölkəmizin rəhbəri İlham Əliyevə minnətdarıq.

*Əsgər məktubu*

## Torpaqlarımızı işğaldan azad edəcəyik!

Salam, dostum Ümid Əliyev! Məktubunu aldım. Hamımız sevindik. Sizdən gələn hər məktub bizi Vətənə daha sıx bağlayır, aldığın cavab məktubuna özünün yazdığın kimi necə çox sevindinsə, biz əsgərlər də sizin məktublarınıza o cür sevinirik. Hər bir məktubunuzu böyük sevgi ilə qarşılayırıq.

Sizin məktublar ruh yüksəkliyimizi daha da artırır, bizlərə mənəvi dayaq olur. Əsgərlərimiz yurdumuza, yurdumuzsa əsgərlərimizə söykənib. Sən də bilirsən ki, yurda söykənən əsgər məğlub olmaz.

Mən hazırda Qarabağ ərazisində xidmət etmirəm, amma orada xidmət edən əsgər yoldaşlarımızın düşmənlə üzbəüz səngərdə necə fəxrlə xidmət etdiyi haqqında məlumatımız var. Azərbaycan torpağının 20 faizi işğal altındadır. Azərbaycan əsgəri Ali Baş Komandanın əmriylə bu torpaqları tezliklə işğaldan azad edəcəkdir.

Əsgər andı ən müqəddəs andır və bu andın yükü, çəkisi ölçüyə gəlməz. Azərbaycan əsgəri qışın soyuğunda, qarında, yayın qızmar istisində, bürküsündə mərdi-mərdanə Vətən sərhədlərinin keşiyində dayanır. Biz Vətənimiz Azərbaycanın ərazi bütövlüyünü canımız və qanımız bahasına qorumağa hazırıq.

Mən də ailəm və tanışlarım üçün çox darıxıram. Ancaq bu keçicidir. Vətən borcunu yerinə yetirənə kimi belə darıxmaların əbəs olduğunu mən də bilirəm.

Sənin və sənin kimi vətənpərvər məktəblilərin Azərbaycan əsgərinə ünvanladığınız çoxsaylı məktubların hər sətrində Vətən görünür. Məktublarınız əsgərə inamdır. İnanırsınız ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcək.

Azərbaycanın gənc əsgərinə munis duyğularını, hiss və düşüncələrini ifadə etməklə Vətən keşiyində dayananlarla sanki siz məktəblilər sərhədlərdə, səngərlərdə söhbətləşirsiniz, bu da biz əsgərlərə mənəvi güc, dayaqdır, daha cəsarətli olmaqdır, Vətənə mübariz xidmət etməkdir.

Qarabağ torpağı yolumuzu gözləyir. Sənə, sənin timsalında təhsil aldığın Biləsuvar rayonundakı 4 saylı tam orta məktəbin şagirdlərinə bütün əsgərlərin adından söz veririk ki, Mübariz ruhlu əsgərlərimizin ərənliyi ilə o yollara dönəcəyik.

Dostum Ümid!

Mənim də səndən bir böyük qardaş kimi xahişim var. Dərslərini yaxşı oxu. İnşallah, sənin də dediyin kimi, biz qalib gələcəyik. Əzəli torpaqlarımızı geri qaytaracağıq. Sinif yoldaşlarına məndən və bütün əsgərlərimizdən salam çatdır. Siz də gələcəyimiz üçün əlinizdən gələni edin. Valideynlərinizin sözündən çıxmayın.

Biz əminik ki, bu gün əsgərə məktub yazan məktəbli sabah torpaqlarımızı inamla qoruyacaq.

Biz Nizamnamələrin tələblərinə uyğun xidmət edir, komandirlərimizin, zabitlərimizin hər bir əmrini sözsüz və məsuliyyətlə yerinə yetiririk. Bu, bizim vəzifə borcumuzdur. Bizim belə xidmətimiz siz məktəbliləri sevindirir.

Sağ ol, Ümid. Sağ ol ki, üreyin bizim yanımızdadı, sağ ol ki, bizə güvənirsən.

Hələlik. Qələbə günü görüşənədək!

**Əsgər**
**Nemət ABBASOV,**
**"N" hərbi hissəsi**

# Hərbi hissədə viktorina keçirildi

*Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının "N" hərbi hissəsində "Atalarımıza layiq olaq" adlı viktorina keçirildi. Tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edildi. Dövlət himnimiz səsləndirildi.*



Tədbiri giriş sözü ilə açan polkovnik Elşad Pənahov yarış iştirakçılarına uğurlar arzuladı. Zabit, həmçinin bildirdi ki, hər bir azərbaycanlı öz tarixini bilməli və adlarını tarixə yazan həmyerlilərimiz barədə məlumatlı olmalıdır. Gənclərin bizim gələcəyimiz olduğunu deyən zabit, ordu sıralarında xidmət edən əsgərlərimizin yüksək bilik və bacarığa malik olmasının vacibliyini vurğuladı.

Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova keçirilən viktorinanın ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdı. Gülxar Məmmədova təşkil olunan bilik yarışının əsas məqsədindən danışdı və qeyd etdi ki, bu cür viktorinalar gənclərimizin intellektual səviyyəsinin və mənəvi-psixoloji ruhunun yüksəlməsində mühüm rol oynayır.

Münsiflər heyəti çıxışını bitirdikdən sonra yarışa start verildi. Gərgin mübarizə şəraitində keçən bilik yarışmasında hərbi qulluqçular öz güclərini sınadılar. Viktorinanın final mərhələsi mayın 10-da Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzində keçiriləcək.

**Leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu"**

# Fiziki hazırlığımızı da artırırıq

*Döyüş hazırlığının ayrılmaz tərkib hissələrindən biri də şəxsi heyətin fiziki hazırlığı və idman normativlərini bacarıqla yerinə yetirməsidir. Təlimlər, məşğələlər və digər fəaliyyətlər bir məqsədə köklənir: döyüş hazırlığını yüksək səviyyəyə çatdırmaq. Bu isə təkcə atəş və taktiki hazırlıqla tamamlanmır. Döyüş hazırlığının yüksəlməsində fiziki hazırlığın da əhəmiyyəti böyükdür.*



"N" hərbi hissəsində xidmət edən leytenant Mail Habiloğlu ilə hərbi hissənin idman şəhərciyində görüşdük. Şəxsi heyətə fiziki hazırlıq məşğələsi keçən zabitin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olduğunu öyrəndik. Leytenant Mail Habiloğlu dedi ki, yenilməz olmaq üçün döyüşə hər cəhətdən hazır olmalısan. "Döyüş hazırlığı çoxşaxəlidir. Bu şaxələrin hamısı qələbədə mühüm rol oynayır. Fiziki güc də döyüş hazırlığının vacib və ayrılmaz qoludur. Hər bir hərbçi yaxşı bilir ki, döyüş taktikasının hücum və müdafiə növü var. Biz də ata-baba torpaqlarımızı işğaldan azad etmək üçün hər an Ali Baş Komandanın hücum əmrini gözləyirik. Hücum döyüşü isə daha çox cəldlik, çeviklik tələb edir. Düşmən müdafiəsini yardıqdan sonra əlbəyaxa savaş da mümkündür. Bu da fiziki gücün vacibliyini bir daha təsdiq edir. Bununla yanaşı, insan idman etməklə sağlam və möhkəm bədənə sahib olur. Fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz hissəsidir".

İdman şəhərciyində zabitin dediklərinin əyani şahidi olduq. Məşğələni də izləmişdik. Zabit idman hərəkətlərini həvəslə izah edir, öyrədirdi. Əsgərlər idman qurğularında bacarıq nümayiş etdirirdilər. Onların fiziki hazırlığının yaxşı olduğunu, idman normativlərinin öhdəsindən uğurla gəldiklərini gördük. Məşğələ bitdikdən sonra bir neçə əsgərlə də söhbətləşdik. İdmanın Vətən müdafiəçisi üçün vacibliyini əsgərlər də yaxşı dərk edirlər. İdman hərəkətlərini edərkən üzlərindəki təbəssüm, məğrurluq onların məşğələyə həvəslə yanaşdığını göstərirdi. Çevik hərəkətləri, müxtəlif idman normativlərini uğurla yerinə yetirmələri fiziki cəhətdən hazırlıqlı olmalarını əyani sübut edirdi. Əsgərlərdən Məhəmməd Tarverdili, Məhərrəm Əliyev, Elnur Cəfərov fiziki hazırlığın əhəmiyyətindən danışdılar: "Biz yaxşı anlayırıq ki, xidmətlərimiz yalnız bir məqsədə yönəlib - döyüş hazırlığımızı yüksək səviyyəyə çatdıraq, Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edək. Bu vəzifə hər birimiz üçün müqəddəsdir. İdman saatlarına da ciddi yanaşır, həvəslə məşq edirik. Qarabağımızı düşməndən azad edəcəyik. Bunun üçün hərbi bilik və vərdişlərə dərindən yiyələnir, fiziki gücümüzü daim artırırıq. İdman saatlarında müxtəlif idman hərəkətləri edir, fiziki göstəricilərimizi ən yüksək səviyyəyə çatdırmaq üçün çalışırıq. Komandirlərimiz bizi idmana daha da həvəsləndirir, mütəmadi olaraq müxtəlif idman yarışları təşkil edirlər. Hər kəs əmin olsun ki, biz düşmən əsgərlərindən hər cəhətdən güclüyük".



Əsgərlər də fiziki hazırlığın döyüş qabiliyyətinə müsbət təsir göstərdiyini, dözümlülük, çeviklik, özgüvən kimi keyfiyyətlər aşıladığını bildirdilər. İdman şəhərciyinin ürəkaçan görünüşü, hər növ müasir qurğularla təmin olunması, həmçinin zabit və əsgərlərlə söhbətimiz bir daha sübut etdi ki, fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Ona görə də istər arxa cəbhədə, istərsə də ön xətt bölmələrində yerləşən hərbi hissələrdə yeni idman şəhərcikləri salınır, müasir idman qurğuları ilə təmin edilmiş trenajor zalları şəxsi heyətin istifadəsinə verilir.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**

# İdman

## "Bakı Marafonu 2019"un qalibi müəyyənləşib



Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu 2019"un qalibi müəyyənləşib. "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı marafonunda marşrutu ilk olaraq uqandalı İsmail Ssenyange qət edib. Uqandalı atlet marşrutu 1 saat 8 dəqiqə 35 saniyəyə qət edib.

Dövlət Bayrağı Meydanından start götürən marafon 21 kilometr məsafəni əhatə edib və Bakı Olimpiya Stadionunda başa çatıb.

Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi ilə təşkil olunub.

## "Qarabağ" 7-ci dəfə Azərbaycan çempionu olub



Mayın 5-də futbol üzrə Topaz Premyer Liqasının 2018-2019-cu il mövsümünün çempionu müəyyənləşib.

"Qarabağ" Topaz Premyer Liqasının 27-ci turunda Tofiq Bəhramov adına Respublika Stadionunda "Səbail" klubunu 4:0 hesabı ilə məğlub edib. 63 xalla Azərbaycan çempionu adını qazanıb.

Ağdamlıların turnir cədvəlində əsas izləyicisi "Neftçi" səfərdə "Qəbələ"ni məğlub (3:1) etməsinə baxmayaraq, xal hesabında "Qarabağ"a çata bilməyib. Qurban Qurbanovun yetirmələri ardıcıl 6-cı, ümumilikdə 7-ci dəfə çempion olub.

## Boksçularımız beynəlxalq turnirdə 10 qızıl medal qazanıblar



Rusiyanın Stavropol şəhərində boks üzrə kadet, yeniyetmə, gənclər və kişilər arasında beynəlxalq turnir keçirilib.

Yarışda ölkəmizi 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin və "Qızıl Əlcək" idman klubunun boksçuları təmsil ediblər. Komandamız turnirdə 10 qızıl, 2 gümüş, 11 bürünc medal qazanıb.

Kadetlər arasında Ayaz Tağızadə (26 kq), Rauf Allahverdiyev (46 kq), Pərviz Aram (32 kq) çempion olublar. Yeniyetmələrin yarışında Əmin Məmmədzadə (38,5 kq), Firudin Məmmədov (63 kq) və Davud İbrahimov (66 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Gənclərin mübarizəsində Ağasəlim Mustafazadə (60 kq), Türkeş Mustafayev (69 kq), kişilərin yarışında isə Pərvin Heydərov (69 kq) və Elşən Huseynov (+91 kq) çempion olublar.

## Səkkiz yaşlı Mina Abbasova beynəlxalq turnirdə üçüncü olub



Mayın 3-dən 5-dək Macarıstanın Harkani şəhərində XVI ənənəvi "Pecs" kuboku uğrunda gimnastika turniri keçirilib.

17 ölkədən 395 gimnastın qatıldığı yarışda Azərbaycanı 2010-cu il təvəllüdlü atletlərin mübarizəsində səkkiz yaşlı həmyerlimiz Mina Abbasova təmsil edib. Turnirdə inamla çıxış edən Mina Abbasova üçüncü yerə layiq görülüb.

Sayca 33-cü medalını (11 qızıl, 19 gümüş, 3 bürünc) qazanan Mina Abbasova müxtəlif yarışların ən yüksək mükafatlarına layiq görülüb. O, beş yaşından etibarən Macarıstanda fəaliyyət göstərən beynəlxalq dərəcəli hakim Lyubov Bernat və İnqa Maçkusun rəhbərlik etdiyi "Rus Rg Sport" klubunun üzvüdür. Atletimiz qatıldığı bütün beynəlxalq yarışlarda valideynlərinin işi ilə bağlı ezam olunduqları ölkəni - Macarıstanı təmsil etsə də, ötən ilin avqustundan etibarən Budapeştdə keçirilən XVII ənənəvi "Gracia" kuboku turnirindən sonra klub rəhbərliyinin icazəsi ilə Azərbaycan bayrağı altında çıxış edir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 383
Nüsxə 3950